# Süni intellektdən istifadə genişlənir

**_Dünyada rəqəmsal transformasiyanın əsas lokomotivlərindən biri hesab olunan süni intellekt texnologiyaları tədricən Azərbaycanın da sosial-iqtisadi həyatında daha nəzərəçarpan yer tutmağa başlayır. Beynəlxalq araşdırmalar göstərir ki, 2025-ci ilin ikinci yarısında ölkədə süni intellektdən istifadə səviyyəsi artaraq 15,5 faizə yüksəlib. Bu göstərici ötən ilin birinci yarısında 14,2 faiz təşkil edirdi ki, bu da qısa müddət ərzində müsbət dinamikanın formalaşdığını göstərir._**



> "Ölkə üçün ən perspektivli istiqamətlər rəqəmsal dövlət idarəçiliyi, kənd təsərrüfatı və maliyyə sektorudur

## Texnologiya

Hafta.az-ın "Microsoft AI Economy Institute" tərəfindən hazırlanan "2025-ci ildə qlobal süni intellektin tətbiqi: genişlənən rəqəmsal fərq" adlı hesabatına istinadən verdiyi məlumata görə, qlobal miqyasda süni intellektdən istifadə artmaqda davam etsə də, ölkələr və regionlar arasında texnoloji fərqlər hələ də qalmaqdadır. Azərbaycan bu göstərici üzrə region ölkələri ilə müqayisədə orta mövqedə qərarlaşıb.

Hesabatda yer alan rəqəmlərə əsasən, 2025-ci ilin ikinci yarısında süni intellektdən istifadə səviyyəsi Gürcüstanda 18,2 faizə çatıb. Türkiyədə bu göstərici 14,6 faiz, Qazaxıstanda 13,7 faiz, Rusiyada 8 faiz, Ermənistanda 6,6 faiz, Özbəkistanda isə 6,3 faiz olub. Müqayisə göstərir ki, Azərbaycan regionun bir sıra ölkələrini geridə qoysa da, hələ də qabaqcıl rəqəmsal iqtisadiyyatlara çatmaq üçün ciddi potensialdan istifadə etməlidir.

Qeyd edək ki, hesabatda süni intellektdən istifadə səviyyəsi generativ AI məhsullarından istifadə edən əhalinin payı əsasında hesablanıb. Hesablamalar zamanı "Microsoft"un anonimləşdirilmiş məlumatları ilə yanaşı, ölkələrin internetə çıxış imkanları və əhali göstəriciləri də nəzərə alınıb. Bu isə rəqəmlərin real istifadə səviyyəsini əks etdirdiyini göstərir. Maraqlıdır, yaxın illərdə süni intellektdə hansı istiqamətlərin Azərbaycanda real tətbiq potensialı var? Hazırda ölkəmizdə süni intellekt ekosistemin inkişafını ləngidən maneələr varmı?

■ **Məsələ ilə bağlı Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov bildirib ki, ölkə üçün ən perspektivli istiqamətlər rəqəmsal dövlət idarəçiliyi, kənd təsərrüfatı və maliyyə sektorudur.** Ekspertin sözlərinə görə, "ağıllı dövlət" konsepsiyası çərçivəsində süni intellekt texnologiyaları vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini və operativliyini əhəmiyyətli dərəcədə artıra bilər. Proaktiv dövlət xidmətləri, yəni vətəndaşın müraciət etmədən ehtiyaclarının əvvəlcədən müəyyənləşdirilməsi və qarşılanması, süni intellektin tətbiqi ilə real imkan mərhələsinə keçməkdədir.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə ağıllı kənd və ağıllı şəhər modellərinin qurulması çərçivəsində süni intellekt əsaslı aqrotexnologiyaların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Torpaq və su resurslarının optimallaşdırılması, məhsuldarlığın proqnozlaşdırılması, iqlim risklərinin qabaqcadan qiymətləndirilməsi kənd təsərrüfatında həm iqtisadi səmərəliliyi artırır, həm də riskləri azaldır.

Maliyyə sektorunda isə banklarda müştəri davranışlarının analizi, risklərin idarə oluhması, fırıldaqçılıq hallarının vaxtında aşkarlanması süni intellektin əsas tətbiq sahələrindən biri kimi ön plana çıxır. Bu texnologiyalar maliyyə institutlarının xərclərini azaltmaqla yanaşı, xidmətlərin təhlükəsizliyini və fərdiləşdirilməsini də gücləndirir.

Bununla belə, ekspert hesab edir ki, Azərbaycanda süni intellekt ekosisteminin inkişafı hələ də bir sıra maneələrlə üz-üzədir. Onun fikrincə, ən böyük problemlərdən biri keyfiyyətli Big Data bazalarının çatışmazlığıdır.

Ekspert vurğulayıb ki, süni intellekt modellərinin effektiv işləməsi üçün strukturlaşdırılmış, etibarlı və davamlı rəqəmsal məlumatlar zəruridir. Lakin ölkədə bir çox sahədə məlumatlar hələ də pərakəndə vəziyyətdədir və vahid mərkəzdən idarə olunmur. Bu isə süni intellekt alqoritmlərinin təlimini və tətbiqini çətinləşdirir.

Digər mühüm problem kadr potensialının yetərli səviyyədə formalaşmamasıdır. Yüksəkixtisaslı məlumat mühəndisləri, süni intellekt memarları və analitiklərə olan tələbat mövcud təklifdən xeyli yüksəkdir. Bu vəziyyət yerli startapların və texnoloji şirkətlərin qlobal rəqabətə qoşulmasını ləngidir.

Mütəxəssislərin qənaətinə görə, əgər yaxın illərdə açıq dövlət məlumatlarının genişləndirilməsi, rəqəmsal infrastrukturun gücləndirilməsi və insan kapitalına yatırımlar artırılarsa, Azərbaycan süni intellekt sahəsində regionun aparıcı ölkələrindən birinə çevrilə bilər. Bu isə yalnız texnoloji deyil, eyni zamanda iqtisadi və sosial transformasiya baxımından da strateji əhəmiyyət daşıyır. Beləliklə, süni intellekt Azərbaycanda artıq eksperimental mərhələdən çıxaraq real tətbiq müstəvisinə daxil olur. Qarşıdakı illər bu texnologiyanın ölkənin inkişaf modelində nə dərəcədə həlledici rol oynayacağını müəyyən edəcək.

✍ **Sevinc**